# ŞAİR OLMADI, AKTRİSA OLDU

*(“Sənət fədailəri” silsiləsindən)*



Vaqif YUSİFLİ

**Böyük sənətkarlara nə qədər tərif desən, yaradıcılığını hansı sözlərlə bəzəsən, nə bu tərif, nə də o gözəl sözlər ürəyincə olmayacaq. Çünki bu tərifələr, bu allı-güllü təşbehlər sənətkar ömrünün bircə anını belə ifadə edə bilməyəcək.**

Hüseyn Ərəblinskinin, Ülvi Rəcəbin, Abbas Mirzə Şərifzadənin hansı monoloqunu sözlə ifadə etmək olar? Mərziyə Davudovanın səhnədəki məsum baxışını necə? Fatma Qədrinin Xuraman rolundakı ağlar gözlərini, Barat Şəkinskayanın Dezdemona tənhalığını, Hökumə Qurbanovanın Kleopatrasındakı alovu, Ələsgər Ələkbərovun “Otello”dakı yanar gözlərini, Sidqi Ruhullanın Qacar qəddarlığını necə?



Sənəti sözlə ifadə edilə bilməyən belə yaradıcılar sırasında Xalq artisti, mərhum deməyə dilim gəlmədiyi Məhluqə xanım Sadıqovanı da görürəm.

Məhluqə xanım 1936-cı ildə səhnəyə gəlib və bircə il olsun belə müqəddəs məbəd hesab etdiyi teatrdan ayrılmayıb. Hətta 1992-ci ildə, 56 il ömrünü-gününü həsr etdiyi Akademik Dram Teatrından təqaüdə çıxarılmaq adıyla o sənət ocağından uzaqlaşmağa məcbur olanda da, sənətini atmayıb, üz tutub Bakı Bələdiyyə Teatrına.

Ölümündən bir neçə il əvvəl görüşmüşdüm onunla. Böyük bacısı Sona xanım Sadıqova Azərbaycan Yazıçılar Birliyində makinaçı işləyirdi. Əlli ildən artıq idi öz makinasında Azərbaycan yazıçılarının əsərlərini çap edirdi. Özü də ərəb hürufatını çox gözəl bilirdi. Kimləri görməmişdi? Cavidi, Mirzə Cəlili, Səməd Vurğunu... Məni də Məhluqə xanımla o görüşdürdü. Mən Azərbaycan radiosunun “Bulaq” verilişlərində Məhluqə xanımla Səməndər Rzayevin gözəl səslərinə heyran olmuşdum.

Məhluqə xanımın səhnəyə, teatra məhəbbəti elə orta məktəbdə oxuduğu illərdə başlayıb. Şəhər 6 nömrəli məktəbində oxuyurdu. Onlara ədəbiyyatdan Əli Sultanlı dərs deyirdi. Həmin Əli Sultanlı ki, sonralar görkəmli ədəbiyyatşünas, professor oldu. Amma o zaman cavan oğlan idi. Bir dərsdə Məhluqə müəlliminin qarşısında bir şeiri əzbər söyləyir. Şeiri bitirəndən sonra Əli müəllim deyir ki, ay qız sən ya şair olacaqsan, ya da aktrisa.

İllər ötür. Şekspir dühasının pərəstişkarı Əli Sultanlı ali məktəblərdə Qərb ədəbiyyatını tədris edir. Məhluqə Sadıqova Teatr İnstitutunun birinci kursunda oxuyanda yenə də Əli Sultanlı ilə qarşılaşır. O, bura Şekspirin yaradıcılığından mühazirələr oxumağa gəlmişdi. Əli müəllim Məhluqəni görən kimi tanıyır. Sözü bu olur ki: “Mən sənə dedim ki, sən ya şair olacaqsan, ya da aktrisa, şair olmadın, aktrisa olacaqsan, uğurlar”.

Onu teatra bağlayan səbəblərdən biri də otuzuncu illərin teatr ab-havası idi. Gənc Məhluqə o zaman müəlliməsi Səyyarə xanıma qoşulub kinostudiyaya getmişdi. Xatırlayırdı ki, gəzib-dolaşdıqları zaman Səyyarə xanım ona eynəkli bir adamı göstərir. “Bu Cəfər Cabbarlıdır” deyir. Dönüb ona baxırlar. Eynəyin altındakı gözləri necə təsiredici, necə cazibədar idi. Amma Məhluqə xanım teatra gələndə böyük dramaturq artıq vəfat etsə də, Cabbarlı sənəti onun həyatına həmişə gur işıq salıb. “1905-ci ildə” pyesində Sona, “Sevil”də Gülüş, “Oqtay Eloğlu”da Firəngiz, “Solğun çiçəklər”də Pəri, “Almaz”da Yaxşı rollarını oynayıb.

Məhluqə Sadıqova səhnəyə gələndə Azərbaycan teatrının çox qaynar, zəngin bir dövrü idi. Və həmin illər bir də onunla əlamətdardı ki, azərbaycanlı qızların səhnəyə axını başlanmışdı. Əvvəllər səhnədə qadın rollarını rus, gürcü, tatar millətindən olan aktrisalar oynayırdı.

Xoşbəxtliyi onda idi ki, Azərbaycan səhnəsinin korifeyləri ilə tərəfi-müqabil olurdu. Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyə Davudova, Sona xanım Hacıyeva, Sidqi Ruhulla, Kazım Ziya, İsmayıl Hidayətzadə, Mirzağa Əliyev, Möhsün Sənani, Mustafa Mərdanov, Ələsgər Ələkbərov, Barat Şəkinskaya, Hökumə Qurbanova, Fatma Qədri ilə.

Deyirdi ki, o illərdə aktyorların bir-birinə münasibəti indikindən qat-qat səmimi idi. Əsl sənət mühiti yaranmışdı. Hamı bir-birinə hörmət edirdi, bir-birinin qədrini bilirdi. Xüsusilə, teatra təzə qəbul olunan cavanlara qarşı əsl səmimiyyət hökm sürürdü. Məsələn, Sona xanım Hacıyeva “1905-ci ildə” pyesindəki Sona obrazını mənim oynamağıma heç bir etiraz eləmədi. Əksinə, bu rolu ifa eləməkdə mənə yaxından kömək etdi. O zaman qısqanclıq, paxıllıq kimi hisslər hələ teatr aləminə yol tapmamışdı.

Məhluqə Sadıqova altmış ildən artıq səhnə həyatında unudulmaz obrazlar yaradıb. Oxuduqlarımdan, eşitdiklərimdən və gördüklərimdən bəzilərini xatırlamaq istəyirəm: “1905-ci ildə” pyesində Sona, “Həyat”da Tərlan, “Vaqif”də Qarı (bu rolu o, 800 dəfədən çox oynamışdı), “Fərhad və Şirin”də əvvəl Fitnə, sonra Məryəm, “Pəri Cadu”da Səlimə, “Vanya dayı”da Sonya, “Sevil”də Gülüş, “Almaz”da Yaxşı, “Tufan”da Fakluşa, “Solğun çiçəklər”də Pəri, “Xanuma”da Kabato, “Müsyö Jordan”da Xanpəri, “Şeytanın şagirdi”ndə Missis Dadçe, “Tomris”də Dayə, nəhayət, “Qarabağ əfsanəsi”ndə Salatın (son rolu). Adlarını çəkdiyimz bu rolların hamısını sevə-sevə, yana-yana oynayıb Məhluqə xanım. Amma ən çox ana rollarını sevib.

Elə öz ailəsində də əsl ana idi - tanınmış rejissor Ələsgər Şərifovun həyat yoldaşı olan Məhluqə xanımın iki oğlu, iki qızı vardı, neçə nəçə də nəvəsi. Ə.Şərifov doğrudan da istedadlı sənətçi idi. Onun hazırladığı tamaşaların əksəriyyəti rus klassik dramaturgiyasından olub. A.Ostrovskinin “Tufan”, “Cehizsiz qız”, “Günahsız müqəssirlər” əsərləri məhz Ələsgər Şərifovun quruluşunda Azərbaycan səhnəsində uzun müddət uğurla oynanılıb. Onun quruluş verdiyi “Tufan” tamaşasını Moskvada, ədəbiyyat və incəsənət ongünlüyündə yüksək qiymətləndiriblər.

Ələsgərlə Məhluqə xanımın tanışlığı da elə teatrdan başlanmışdı. Hiss eləmişdilər ki, bir-birlərinə qarşı biganə deyillər. Evləndilər, gözəl ailə yarandı, mənalı ömür sürdülər.

Məhluqə Sadıqova 1972-ci ildən Azərbaycan teatrının ulduzlarından olan Səməndər Rzayevlə birgə radioda - “Bulaq” verilişində birgə çıxış etdilər. Bu veriliş o qədər böyük şöhrət qazanmışdı ki, hansı rayona yolları düşürdüsə, onları hərarətlə qaşılayır, evlərinə qonaq aparırdılar. Hələ ünvanlarına gələn məktubları demirik. Məhluqə xanım Səməndərdən danışanda səsində bir qüssə, bir məhzunluq, sanki ən əziz adamını itirmiş bir insanın kədəri duyulurdu. Deyirdi ki, Səməndər çox ağıllı, savadlı, bir o qədər də mədəni, səmimi bir insan idi. Qısa ömür sürsə də, Səməndər neçə unudulmaz obrazlar yaratdı. Ölümündən sonra Kəlbəcərdən bir qız belə bir məktub yazmışdı ki, Məhluqə xanım, siz necə olur Səməndərsiz çıxış edirsiniz? Sonra da o məktuba belə bir bayatı əlavə eləmişdi:

***Yaşıldır başın, ördək,***
***Bilinmir yaşın, ördək.***
***Həmişə cüt gəzərdiz,***
***Hanı yoldaşın, ördək?***

Deyirdi ki, Səməndər Rzayev sənət dünyasında Səməndər quşu kimi yandı, alovlandı. Onsuz çətin olsa da, “Bulaq” verilişini tərk etmədi. Səməndəri əvvəlcə Mikayıl Mirzə əvəz etdi. Sonra bir müddət Ədalət Məmmədovla tərəf-müqabil oldu, daha sonra Rasim Balayev. Sonda da İlham Əsgərovla. İlhamın səsiylə səsinin tutduğunu da gizlətmədi. “Bulaq” verilişlərində xalqımızın təkrarsız folkloru, xalq ədəbiyyatı təbliğ olunurdu. Orda səslənən bayatılar, qoşmalar, gəraylılar təkcə yazılı ədəbiyyatdan gəlmirdi, həm də xalqdan gəlirdi. O qədər məktub göndərilirdi ki, yığıb-yığışdırmaq olmurdu. “Bulağ”ın ssenarisini həmişə yazıçı Mövlud Süleymanlı qələmə alırdı. Mövlud müəllim deyir ki, Məhluqə xanımla Səməndəri elə ilk verilişə mən dəvət etdim, bilirdim ki, bunların səsi bayatılıqdı, qoşmalıqdı.

Aktirsa yaşlaşanda heç də onun sənət yanğısı tükənmir. Məhluqə xanım Akademik teatrdan yaşına görə çıxarıldı, amma nə yaxşı ki, Amaliya xanım Pənahova onu Bələdiyyə teatrına dəvət etdi. Amaliya Pənahova təkcə onu yox, Muxtar Afşarovu da, Sofiya Bəsirzadəni də, Mirvari Novruzovanı da yaratdığı teatra apardı. Bələdiyyə teatrı tez bir zamanda şöhrət qazandı və Məhluqə xanım da bir sıra gözəl rollar oynadı.

Məhluqə Sadıqova sənətə otuzuncu illərdə gəldi, böyük sənətkarlarla çiyin-çiyinə işlədi, bir neçə aktyor nəslini gördü. Onun ömrü teatra, səhnəyə ideal dərəcədə bağlı idi. Bu müqəddəs ocaqda keçirdiyi ömrü-günü, orada oynadığı rolları son anına kimi xatırlayır, bəzən nigarançılıqla keçmişi xatırlayır, bəzən də o günlərlə fəxr edirdi. Bilirdi ki, onu tanıdan, insanlara sevdirən teatrdır.

